HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 sentyabr 2015-ci il
№007 (07)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “გზა” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏ ALMANİYANI ENERGETİKA ƏMƏKDAŞLIĞINA DƏVƏT EDİR



Azərbaycan energetika nazirliyinin məlumatında bildirilib ki, Azərbaycan, Gürcüstan və Türkiyə Almaniya ilə alman sahibkarlarının gələcək energetika və infrastruktur layihələrində iştirakının mümkünlüyünü müzakirə edəcəklər.

Bu məqsədlə 2015-ci ilin sonunda iqtisadiyyat və mədəniyyət üzrə alman-gürcü cəmiyyətinin və Almaniya iqtisadiyyatının Şərq komitəsinin təşkilatçılığı ilə Azərbaycan, Gürcüstan, Türkiyə və Almaniyanın iştirakı ilə dördtərəfli energetika konfransı keçiriləcək. Konfransda Azərbaycan, Almaniya, Türkiyə və Gürcüstanın yüksək vəzifəli nümayəndələrinin iştirakı gözlənilir.

Azərbaycan qazının Avropa bazarlarına çıxarılmasını təmin etmək üçün 17 dekabr 2013-cü il tarixində “Şahdəniz” yatağında ikinci mərhələdə iş aparmaq üçün investisiya qərarı qəbul olunub. Buradan hər il 10 milyard kubmetr həcmində qaz Avropa bazarlarına, 6 milyard kubmetr qaz isə Türkiyəyə göndəriləcək. “Şahdəniz” yatağının qaz ehtiyatı 1,2 trilyon kubmetr, kondensat ehtiyatı isə 240 milyon kubmetrdir.

Azərbaycanın “Şahdəniz” yatağından hasil edilən qaz və kondensat Cənubi Qafqaz, Transanadolu (TANAP) və Transadriatik (TAP) qaz kəmərləri vasitəsilə Türkiyəyə və Avropa bazarlarına ixrac olunacaq.

*MADDİ SƏRVƏTLƏRİN YARATDIĞI MƏNƏVİ BÖHRAN* — *Afiq MUXTAROĞLU* — 2

*DÜNYANIN BAŞAĞRISINA ÇEVRİLƏN QAÇQINLAR* — *Sahib MUSTAFA* — 3

*BÖYÜK DÖVLƏTLƏRİN KİÇİK OYUNCAQLARI* — *Cambul MƏMMƏDLİ* — 4

*HƏYATIMIZIN MƏKTƏBQABAĞI TƏLAŞI* — *Afayət AFİQ* — 5

*HƏQİQƏTİ ORTAYA ÇIXARAN SÖZ GÜLƏŞDİRMƏ SƏNƏTİ* — *A. M. DƏLİVƏLİGİL* — 6

*ÖLÜMSÜZLÜK MÜMKÜNDÜRMÜ?* — *Anar RAFİQOĞLU* — 7

*TİFLİS AZƏRBAYCAN TEATRI LİTVADA KEÇİRİLƏCƏK BEYNƏLXALQ TEATR FESTİVALINA DƏVƏT ALIB* — 8

## DÖVLƏT KONSTİTUSİYA KOMİSSİYASINA QANUN LAYİHƏSİNİ HAZIRLAMAQ ÜÇÜN ƏLAVƏ VAXT VERİLİR



Gürcüstanın qanunvericilik orqanı Dövlət konstitusiya komissiyasına ölkənin əsas qanununa düzəlişləri hazırlamaq üçün 2016-cı ilin 29 fevralınadək əlavə vaxt verməyi planlaşdırır.

Komissiya, parlamentin qərarına əsasən Gürcüstan konstitusiyasına yenidən baxmaq haqqında qanun layihəsi hazırlamaq üçün 2013-cü ilin oktyabrında yaradılıb. Dəyişikliklərin hazır olması 2015-ci ilin 15 sentyabrınadək planlaşdırılsa da, iş prosesində meydana çıxan məsələləri əlavə müzakirə etmək lazım gəlib.

“Komissiyanın konstitusiyaya yenidən baxmaq haqqında qanun layihəsini parlamentə təqdim etməsi üçün 29 fevral 2016-cı il daha məqsədəuyğundur”,– parlamentin qərarında deyilir.

Dövlət komissiyasının işinin uzadılmasının təşəbbüskarı Gürcüstan parlamentinin sədri David Usupaşvili və spikerin müavini Manana Kobaxidzedir.

Gürcüstanın Konstitusiya məhkəməsi mayın 28-də rayonların sayından asılı olaraq, birmandatlı seçki dairələrinin bölünməsi prinsipinə aid olan seçki məcəlləsinin konstitusiyaya uyğun gəlmədiyini bildirib.

Məhkəmədə belə izah ediblər ki, Gürcüstan parlamenti mexaniki olaraq qeydiyyatdan keçmiş seçicilərin sayını nəzərə almadan seçki dairələrini rayonlarla əlaqələndirib.

## SOCAR GÜRCÜSTANIN QAZLAŞDIRILMASINI 82%-Ə ÇATDIRMAĞI PLANLAŞDIRIR




SOCAR şirkəti 2017-ci ilədək Gürcüstanın qazlaşdırılmasını 82%-ə çatdırmaq niyyətindədir.

Bu barədə "SOCAR Energy Georgia" şirkətinin baş direktoru Mahir Məmmədov məlumat verib.

Gürcüstan hökumətilə əldə olunmuş razılığa əsasən "SOCAR Georgia Gas" kompaniyası 150 min yeni abunəçini qazlaşdırmalı, bu işə 40 milyon dollar investisiya qoymalı idi. Lakin əvvəlcədən nəzərdə tutulmuş göstəricilər investisiyanın həcmindən çox olduğuna görə, qazlaşdırma proqramının fəaliyyət müddəti uzadılıb.

“Gürcüstanın qazlaşdırılması üzrə proses davam edir. Hazırda yeni üçillik investisiya proqramı fəaliyyət göstərir. Bizim əməliyyat fəaliyyətimiz Gürcüstan ərazisinin 90%-ni əhatə edir. Bu günə qədər Gürcüstanda real abunəçilərin 65-67%-i, potensial abunəçilərin isə 73-74%-i qazlaşdırılıb. Bu, çox yüksək faizdir, bizim məqsədimiz 2017-ci ilədək qazlaşdırmanın səviyyəsini 80-82%-ə çatdırmaqdır”, – Mahir Məmmədov deyib.

26 dekabr 2008-ci il tarixində SOCAR və Gürcüstan hökuməti ölkənin Kaxeti, Msxeta-Mtianeti, Şida və Kvemo Kartli, Acara, Quriya, İmereti, Sameqrolo regionlarını əhatə edən 30 qazpaylayıcı təsərrüfatın və qazpaylayıcı şəbəkənin şirkətə verilməsi haqqında müqavilə imzalamışdılar. Sonra qazpaylayıcı təsərrüfatların siyahısı genişləndirildi. Adı çəkilən təsərrüfatlar əvvəllər ləğv edilmiş və onların bazasında SOCAR-ın idarəçiliyində olan yeddi regional qaz təsərrüfatı yaradılmışdır.



Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

# *MADDİ SƏRVƏTLƏRİN YARATDIĞI MƏNƏVİ BÖHRAN*

**Bu dünya yarış meydanına çevrilib. Kimi qonşusu ilə, kimi qohumu ilə bəhsə girib. Qonşu qonşuya baxıb, canını oda yaxmaqla məşğuldur. Biri özünə qonşu çatladan paltar, kimi qohumunu o dünyalıq edəcək maşın alır, kimi də topdan çoxlarını çərlədəcək ev tikdirib, qonum-qonşusunu kölgəyə qısnamaqla özünü ifadə edir. Bütün maddi və mənəvi dəyərlər fiziki hal alır, insan maddi bir yığına çevrilərək, öz ilkinliyindən, təbiiliyindən uzaq düşür. Bütün bunlar kimdənsə üstünlük sərgiləmək, kimdənsə yüksəkdə durmağı qabartmaq naminə edilir. Dünya malından ötrü hər gün minlərlə insanın qanı axıdılır. Fərdlər, təşkilatlar, məmləkətlər irəli çıxmaq, birinci olmaq üçün insan qanına susayır, bəşər övladı paklaşmaq, durulaşmaq, arınmaq əvəzinə qatilə çevrilməkdən belə qorxmur. Maddi sərvətlərə sahib olmaq üçün dürlü vasitələr icad edən insan oğlu ruhunu şeytana satmaq kimi qorxulu bir yolun yolçusu olmağı da özünə rəva bilir. Haram buyurulan işləri həmcinsinə tətbiq etməklə, onu canından bezdirməyi, öz canına qəsd etməyi, intihar dərəcəsəniə çatdırmağı həyat normasına çevirənlər çevrəmizdə istənilən qədərdir.**

Maddi sərvətlərin get-gedə cüzi bir qrupun əlində daha çox cəmləşməsi çoxluğun həyatında silinməz izlər buraxır. Maddi vəsait çatışmazlığından milyonlarla insan qanunsuz işlərlə məşğul olmağa sövq edilib, mənəviyyatsızlığa yuvarlanır. Ailəsi üçün bir parça çörək tapa bilməyən insanın əxlaqsızlıq girdabına düşməyəcəyinə kim təminat verə bilər? Doğrunun oğruya çevrilməyəcəyini demək də çətinləşir. Düzdür həyat çətinliklərini göylərin sınağı kimi qavrayıb, ona sinə gərənlər, varın da, yoxun da insan üçün sınaq kimi göndərildiyini düşünüb bir qarnı ac, bir qarnı tox yaşayanlar da az deyil. Dünyada bir milyarddan artıq insanın aclıq məngənəsində boğulduğu heç kimdən gizlin deyil. Dəhşət orasındadır ki, bundan üç dəfə az insan isə toxluğun yaratdığı şişmanlıq kimi xəstəliklərin əsirinə çevrilib. Indi gəl sən koru körpüdən keçir, kora anlat ki, qarşında körpü var, oradan ehtiyatla keçmək gərəkdir. Şişmanlaşan adamlara qandır ki, balam, az ye. Nəfsdir də, neynəyəsən ki, bəzən insanın sözünə baxmır. Şişmanların arıqlamaq üçün min cür hoqqadan çıxdığı bu dünyada, aclıqdan canı çıxmaq dərəcəsinə gələn arıqların bir yolu var, necə olur-olsun aclıq bəlasından xilas olmaq. Ac aclığından qılınca da gedər, hələ üstəlik topa-tüfəngə də.

Insanları buna vadar etməyə lüzum varmı?

Aclıqdan, yoxsulluqdan, səfalətdən xilas olmağı düşünənlər çarə axtarışında müxtəlif üsulları sınaqdan çıxarırlar. Bir qism çeşidli oyunlardan uduş əldə edəcəyini güman edib, olan-qalanını da verib borc bataqlığında inildəyir. Kazinolar, bukmeker kontorları, oyun avtomatları zənginlərin sərvət mənbəyi deyilmi? Yenə də ortada olan kasıba, yoxsula olur. Yenə də kasıb əli qoynunda çıxış yolu arayır. Və bu dəfə çıxış yolu kimi üz tutur banklara. Bankların üzünə saxta təbəssüm yapışdırmış işçilərinin yağlı dilinə aldanaraq, bank boyunduruğuna düşürlər. Bəzən on illərlə bank quldarlığından xilas belə mümkün olmur. Banklar, mikromaliyyə təşkilatları beynəlxalq maliyyə qurumlarından əldə etdikləri pulları böyük faizlə müştərilərinə verib, onları əsarətdə saxlamaqla məşğuldurlar. Bəzən 5-7%-ə götürülmüş kredit müştərilərə 12-18%, hətta daha yüksək faizlə verilir. Yenə də qazanan zənginlər, itirən isə yoxsullardır. Məsələ o qədər aydındır ki, hətta əlavə izaha belə ehtiyac duyulmur.

Bankların şirnikləndirici təkliflərinə aldanan zəlil insanlar da, balıq tamahından qarmağa keçən kimi, bankların caynağına keçir və oradan çıxmaq üçün bəzən həyatından belə keçməli olur. Intiharlarla bağlı statistikadan da göründüyü kimi, hər yüz özünə qəsd edən insanın 60-65 nəfəri maliyyə problemləri, o cümlədən də banklara olan borc ucbatından bu addımı atır. Yəni psxolojisi pozulmuş insanların, əlacsız xəstələrin intihar göstəricilərini maliyyə-bank intiharları düz iki dəfə üstələyir.

Bir də var sələmçilər, sələmxorlar. Onlar da əli banklardan çıxan, təntimiş, əli oda düşmüş insanları soyub talamaqla məşğuldurlar. Onlar pullarının geri qayıtmasının çətinliyini nəzərə alıb, bəzən də elə tamah məqsədilə 30-40% gəlir gətirən maliyyə təsərrüfatlarını yaradırlar. Onlara baxanda adam bank icad edənin atasına rəhmət oxumaq istəyir.

**Mən mövzunu tam toparladığımı düşünmürəm. Və gələn saylarımızda mövzuda çiy buraxdığım məqamlara bir daha dönəcəyim ümidilə yazımı nöqtələyirəm.**

## MARNEULİDƏ YENİ TƏDRİS İLİNİN BAŞLANMASI MÜNASİBƏTİLƏ FESTİVAL KEÇİRİLİB



14 sentyabr 2015-ci il tarixində Marneuli munisipolitetində mədəniyyət mərkəzinin təşkilatçılığı ilə yeni tədris ilinin başlaması münasibəti ilə “Colorfest” adlı “Rəngli festival” keçirilib. Festivalda mədəniyyət mərkəzi nəzdnində fəaliyyət göstərən qrupların iştirakı ilə müxtəlif əyləncəli nümunələr təqdim edilib.

“İberia” ansamblı tərəfindən fleş-mob keçirilib. Tədbirdə Marneuli munisipolitetinin ictimai məktəb pedaqoqları, şagirdlər, gənclər, Marneuli munisipolitetinin yerli özünüidarəetməsinin əməkdaşları və başqa dəvət olunmuş qonaqlar iştirak ediblər. Festival rəngarəng və əyləncəli nömrələrlə böyük rəğbət qazanıb. Yekunda gənclərə rəngli toz paylanılıb və iştirakçılar “rəngə boyanıblar”.

## GÜRCÜSTAN YAŞLI ADAMLARIN HƏYAT KEYFİYYƏTİ ÜZRƏ 96 ÖLKƏ ARASINDA 29-CUDUR

Gürcüstan yaşlı adamların həyat keyfiyyəti üzrə 96 ölkə arasında 29-cu yeri tutur. Bu barədə Global Watch Age Index 2015 məruzəsi məlumat verir.

Məruzəyə əsasən, 2030-cu ildə 60 yaşdan böyük vətəndaşlar ümumi əhalinin 25,1%-ini (2014-cü ildə 19,3%) təşkil edəcək. Gürcüstanda yaşlı adamların pensiya ilə təminatının ödənilməsi nöqteyi-nəzərindən göstəricilər yaxşıdır. Lakin səhiyyə göstəriciləri kifayət qədər aşağıdır, eləcə də vətəndaş azadlığı, nəqliyyat sistemi və sosial əlaqə kafi deyil. Mütəxəssislər İsveçrəni yaşlı adamlar üçün ən əlverişli ölkə hesab ediblər. Reytinqdə sonuncu yeri Əfqanıstan tutur.

Məruzədə region ölkələri arasında Ermənistan (43-cü yer), Rusiya (65-ci yer) və Türkiyənin (75-ci yer) göstəriciləri də təqdim olunub.

## GÜRCÜSTAN KİV AZADLIĞI REYTİNQİNDƏ MÖVQEYİNİ YAXŞILAŞDIRIB



“Sərhədsiz reportyorlar” təşkilatının yaydığı məlumata görə, KİV azadlığı reytinqində Gürcüstan 180 ölkə arasında 69-cu yeri tutur. Gürcüstan keçən il bu reytinqdə 84-cü yeri tuturdu.

Təşkilatın saytında qeyd olunur ki, 2012-2013-cü illərdəki seçkilərdən sonra Gürcüstan əvvəlki illərdə başlanan islahatların bəhrəsini görür. Saytda vurğulanıb ki, KİV sahiblərinin şəffaflığı da artıb. Lakin informasiya buraxılışları siyasi cəhətdən qütbləşib və hələlik müstəqil deyil.

Reytinqə görə, Gürcüstanın qonşularının mövqeyi belədir: Ermənistan 78-ci, Azərbaycan 162-ci, Rusiya 152-ci, Türkiyə 149-cu, Ukrayna 129-cu yeri tutur. Reytinqin ilk üçlüyünə Finlandiya, Norveç və Danimarka başçılıq edir.

## BÜDCƏ ŞƏFFAFLIĞI İNDEKSİNƏ GÖRƏ GÜRCÜSTAN DÜNYADA 16-CI YERDƏDİR

Beynəlxalq büdcə tərəfdaşlığı (The International Budget Partnership) “Büdcə şəffaflığı tədqiqatı 2015”-in (Open Budget Survey 2015) nəticələrini nəşr edib. Nəşrin məlumatına görə, Gürcüstan 66 xalla 102 ölkə arasında 16-cı yeri tutur. Xatırladaq ki, Gürcüstan 2012-ci ildə bu indeksdə 33-cü yeri tuturdu.

Gürcüstan bu mövqeyi ilə mühüm şəffaf ölkələr sırasına düşüb ki, bununla bütün region ölkələrini və Şərqi Avropanın bir çox ölkəsini qabaqlayır.

Tədqiqatın nəticələrini maliyyə nazirliyi nəşr edib. Nazirliyin məlumatına görə, bu tədqiqat və şəffaf büdcə indeksinin müəyyənləşdirilməsi 2-3 ildə bir dəfə, vətəndaş cəmiyyəti mövcud olan ölkələrdə müstəqil ekspertlərin məlumatı əsasında həyata keçirilir və hökumətlərin ictimai maliyyəni idarə etməsi sistemini şəffaflq konteksində öyrənir. Tədqiqat həm də büdcə proseslərində tərəflərin iştirakı, büdcənin idarə olunmasına nəzarəti araşdırır.

## GÜRCÜSTANDA MƏHDUD İMKANLI UŞAQLAR ÜÇÜN MÜAVİNƏT 60% ARTIRILIR



Gürcüstan səhiyyə nazirininin müavini Zaza Sopramadzenin məlumatına görə, sentyabr ayından məhdud imkanlı uşaqlar üçün müavinət 60% artırılaraq 160 lari (69 dollara yaxın) olacaq.

“Artıq sentyabrdan 9103 məhdud imkanlı uşaq artırılmış təqaüd alacaq”, – əmək, səhiyyə və social müdafiə nazirinin müavini deyib.

İmkan məhdudluğu kəskin ifadə olunan şəxslər üçün də müavinət 160 lariyədək artırılır. Gürcüstanda belə adamlar 24457 nəfərdir.

Zaza Sopromadze bildirib ki, məhdud imkanlı şəxslərin müavinəti üçün dövlət büdcəsindən 3,1 milyon lari (1,3 milyon dollara yaxın) ayrılıb.

## GÜRCÜSTANDA VAKANSİYA HƏFTƏSİ HƏYATA KEÇİRİLİR

Gürcüstan səhiyyə nazirliyinin məlumatında bildirilir ki, Vakansiya həftəsi çərçivəsində iş tapmaq istəyənlər sentyabrın 14-dən başlayaraq, bir həftə ərzində qeydiyyatdan keçməlidirlər.

Vakansiya həftəsi Tbilisidə və Telavidə sentyabrın 21-də başlayacaq. Qeydiyyatdan Gürcüstan əmək, səhiyyə və sosial müdafiə nazirliyinin sosial xidmət agentliyinin work-net.gov.ge. saytında onlayn qaydada keçmək lazım gəlir.

Proqramın verdiyi qeydiyyat kartoçkasında müsahibənin keçirildiyi yer və vaxt göstərilir. Proqramın iştirakçıları onu müsahibə zamanı özləri ilə götürməlidirlər. Bundan başqa özünlə şəxsiyyət vəsiqəsi, eləcə də bir neçə nüsxə CV götürmək lazımdır.

Sosial xidmət agentliyinin portalında artıq Tbilisi və Kaxetinin 170 şirkətinə məxsus 500-ə yaxın vakansiya yerləşdirilib. Nazirlikdə qeyd ediblər ki, yaxın vaxtlarda vakant yerlərin siyahısı genişləndirilə bilər.

## GÜRCÜSTANDA AVİAHİSSƏLƏR BURAXAN MÜƏSSİSƏNİN TİKİNTİSİNƏ BAŞLANDI



Baş nazir İrakli Qaribaşvili Tbilisi beynəlxalq hava limanının yaxınlığında aviahissələr buraxan müəssisənin tikintisinin təməlini qoyub. Baş nazirin bəyan etdiyinə görə, çox mühüm layihənin əsası qoyulur.

“Gürcüstanda ilk dəfə dünya əhəmiyyətli aviahissələr hazırlayan müəssisə tikilir. Müəssisədə yüksək texnoloji materiallardan mülkü təyyarələr üçün detallar hazırlanacaq ki, onlardan Boeing, Bombardier, Sukhoi, Airbus kimi dünya nəhəngləri istifadə edəcək. Müəssisədə istehsal olunan məhsullar, əlbəttə, tamamilə ixrac olunacaq”, – Qaribaşvili bəyan edib.

Onun sözlərinə görə, bu vacib layihə İsrailin ELBIT Systems şirkəti və Gürcüstanın tərəfdaşlıq fondu tərəfindən həyata keçirilir. İnvestisiyanın ümumi həcmi 85 milyon dollar təşkil edir. Müəssisənin açılışı 2017-ci ilə planlaşdırılır. Gürcüstan tərəfdaşlıq fondu bu layihədə 40 milyon dollarlıq sərmayə ilə iştirak edir. Bu layihə 300 yeni iş yeri yaratmağa imkan verəcək.

Burada işləyəcək Gürcüstan vətəndaşları İsraildən dəvət olunmuş aparıcı mütəxəssislər tərəfindən yenidən hazırlanacaq.

## YAY ƏRZİNDƏ GÜRCÜSTANDA İKİ MİLYONDAN ARTIQ ƏCNƏBİ OLUB

Bu ilin avqustunda Gürcüstana 852 min 377 nəfər əcənəbi gəlib. Keçən ilin eyni dövrü ilə müqayisədə artım 10% təşkil edib. Avqustda Gürcüstanda 24 saat və ya bir gündən artıq olan əcnəbilərin sayı isə 2% artıb.

Bu məlumatı Gürcüstan DİN-nin analitik informasiya mərkəzinin məlumatlarına əsasən Gürcüstan milli turizm administrasiyasının rəhbəri Qeorqi Çoqovadze verib.

Iyun-avqust aylarında 2086831 nəfər əcnəbi Gürcüstanda olub.

Son səkkiz ay ərzində keçən ilin müvafiq dövrü ilə müqayisədə Avropa ölkələrindən gələn turistlərin sayı nəzərə çarpacaq dərəcədə artıb. Xüsusilə gələnlərin sayında Litvadan 21%, Çexiyadan 20%, Latviyadan 14%, Almaniyadan 12%, İtaliyadan 10%, Böyük Britaniyadan 10%, Hollandiyadan 10% artım müşahidə edilib.

Turistlərin rekord artım göstəricisi BƏƏ-dən 766%, Səudiyyə Ərəbistanından 75%, Belarusdan 54%, Qazaxstandan 36%, Moldovadan 35% olub.

Marketinq və reklam kampaniyası üçün 8 milyon lariyə yaxın (3 milyon dollardan artıq) vəsait xərclənib, ancaq keçən ilin eyni dövrü ilə müqayisədə turistlərin sayının artması ilə şərtlənən ilkin gəlir (yalnız aprel-iyul aylarında) 96 milyon 634 min lari (40 milyon dollardan artıq) təşkil edib.

## GÜRCÜSTANDA ALMAN KORPORASİYASININ NÜMAYƏNDƏLİYİ AÇILIR

Gürcüstanda multimilli alman korporasiyasının nümayəndəliyi açılır. Gürcüstan iqtisadiyyat nazirliyi məlumat verib ki, bu qərar barədə Gürcüstanın iqtisadiyyat və sabit inkişaf naziri Dmitri Kumsişvili və SAP Labs China şirkətinin icraçı direktoru Klas Naymannın görüşündən sonra məlum olub. Görüş Çinin Dalyan şəhərində ümumdünya iqtisadi formu çərçivəsində baş tutub.

Dmitri Kumsişvili Klas Noymannı Gürcüstanda mövcud olan biznes mühiti və ölkədə həyata keçirilən iqtisadi layihələrlə tanış edib. Nazir belə bəyan edib ki, bu nümayəndəliyin açılışı hər iki tərəf üçün maraqlı və səmərəli olacaq.

Alman korporasiyası SAP-ın dünyanın 130 ölkəsində nümayəndəliyi açılıb. Korporasiyanın gəliri 17,56 milyard dollar təşkil edir. 2014-cü ilin məlumatlarına görə, korporasiyada 74400 nəfər fəaliyyət göstərir.

### QAZIN TARİFİNİN YÜKSƏLDİLMƏSİ DİNİ TƏŞKİLATLARA AİD EDİLMƏYƏCƏK



SOCAR Georgia Gas-ın məlumatına görə, oktyabrın 1-dən təbii qazın qiymət artımı kilsə və büdcə təşkilatlarına, habelə çörək zavodlarına aid edilməyəcək.

Oktyabrın 1-dən təbii qazın qiyməti bütün kateqoriyadan olan komersiya istifadəçiləri üçün 1 kub metr qaza görə 0,84 dollar müəyyənləşdiriləcək.

Şirkətin qərarına əsasən tariflərin yüksəldilməsi kilsə və büsdcə təşkilatlarına, eləcə də çörək zavodlarına aid edilməyəcək. Hüquqi şəxslər üçün tariflər 0,04 dollar artırılacaq.

SOCAR Georgia Gas abunəçilərə məlumat verir ki, tariflərin yüksəldilməsi bazarda vəziyyətin dəyişməsi ilə əlaqədardır.

Sahib MUSTAFA
sahib1975.sm@gmail.com



## DÜNYANIN BAŞAĞRISINA ÇEVRİLƏN QAÇQINLAR

**2011-ci ilin əvvəlindən Suriyada başlamış vətəndaş müharibəsi bu ölkənin iqtisadiyyatının bütün sahələrini, daxili və xarici ticarətini iflic vəziyyətinə salmışdır. Müharibə ölkənin heç bir bölgə və şəhərindən yan keçməmiş və nəticədə Suriya, demək olar ki, tamamilə xarabalığa çevrilmişdir. Ekspertlər bu ölkənin yenidən bərpası və rekonstruksiyasına 240 milyard, üzünmüddətli prespektivdə iqtisadiyyatının dirçəldilməsi üçün isə 500 milyard dollardan çox vəsaitin gərəkli olduğunu vurğulayırlar.**

Bundan başqa müharibənin törətdiyi ən böyük fəsadların başında qaçqınlar ordusu durur. Bir tərəfdən Başər Əsad diktaturasından, digər tərəfdən də İŞİD zülmündən yaxa qurtamağa çalışan, müharibə nəticəsində bütün əmlaklarını itirmiş suriyalılar insanlıq dramının yaşandığı ölkəni tərk etməyə məcbur olublar. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Baş komissarı Antoniu Quterresin açıqlamalarına görə hal-hazırda 4 milyondan çox Suriya vətəndaşı ölkəni tərk etmək məcburiyyəti qarşısında qalmışdır. Onlardan 2 milyona yaxını Türkiyəyə, 1 milyondan çoxu Livana, 650 mini isə İordaniyaya pənah gətirmişdir. Bu acı göstərici II dünya müharibəsindən sonra yaranmış ən böyük qaçqın axınıdır. Bundan başqa, müharibənin gedişatında evlərini itirmiş 8 milyona yaxın insan isə bu ölkədə ağır, dözülməz şəraitdə həyatda qalmağa çalışır. Qeyd edək ki, vətəndaş müharibəsinədək Suriyanın əhalisi 21 milyon nəfər təşkil edirdi.

Son günlərdə 270 min suriyalı qaçqın statusu almaq üçün Avropa İttifaqı ölkələrinə müraciət etmişdir. Qaçqınların böyük qisminin sosial müdafiə sistemləri güclü olan Almaniya və İsveç kimi ölkələrə getmək istəmələri, bu dövlətlərin rəsmilərini qaçqınlarla bağlı konkret plan hazırlamaq məcburiyyətində qoymuşdur. Məhz bu səbəbdən Almaniyanın federal kansleri Angela Merkel qaçqınların köhnə qitənin ayrı-ayrı dövlətlərində yerləşdirilməsi ideyasını irəli sürmüşdür. Avropa Komissiyasının rəhbəri Jan Klod Yunker hazırki dövr üçün yalnız 120 min qaçqının Avropa İttifaqı üzvü ölkələrində yerləşdirilə biləcəyini vurğulamışdır. Keçən il Almaniyaya leqal və qeyri-leqal yollarla 220 min, ümumilikdə Avropanın çeşidli ölkələrinə isə yarım milyondan çox qaçqın axını olmuşdur. Lakin, yaxın gələcəkdə qaçqin dalğasının bununla bitməyəcəyini proqnozlaşdırmaq heç də çətin deyil. Cari ilin sonuna kimi onların sayının 1 milyonu ötüb keçəcəyi proqnozlaşdırılır.Bu səbəbdən Almaniya yaxın iki ildə daha 200 min qaçqın qəbul edə biləcəyini bildirmiş və qeyd olunan sahəyə 6 milyard avro vəsait ayırmışdır. Avropa İttifaqının öndə gedən dövlətlərindən olan Fransa 24 min, Böyük Britaniya və İspaniya isə müvafiq olaraq 15 min qaçqını öz ölkələrində yerləşdirmələri barədə açıqlama verib. Bu arada, erməni mənşəli Suriya qaçqınlarının Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində yerləşdirilməsi prosesinin davam etməsi barəsində Bi-Bi-Ci məlumat yaymışdır. Qeyd edək ki, suriyalı ermənilər kompakt şəkildə əsas etibarı ilə Suriyanın Hələb şəhərində yaşayırdılar. 2012-ci ildən bəri 15 min suriyalı erməni Ermənistana qaçmış, Yerevan tərəfindən rəsmi Bakının nəzarət edə bilmədiyi işğal olunmuş ərazilərdə yerləşdirilmişlər. Bu isə gələcəkdə Dağlıq Qarabağ probleminin hərb vasitəsi ilə çözülməsi ehtimalında Bakıya əlavə başağrısı deməkdir.

**Gürcüstan da öz növbəsində suriyalı qaçqınlara yardım əlini uzatmaqdadır. Belə ki, bu il ölkəmizə pənah gətirmiş 300 suriyalı məcburi köçkün sığınacaqlarda yerləşdirilmişdir. Gürcüstan BMT-nin “Qaçqınların statusu haqqında” konvensiyasına qoşulub, bu səbəbdən adı gedən təşkilat və Qaçqınlar üzrə Ali Komissarlıq qarşısında üzərinə götürdüyü bütün öhdəliklərə əməl edir. Ölkəmiz xarici qaçqınların hüquqlarını beynəlxalq normalar çərçivəsində müdafiə edərək, onların reablitasiya olunmaları üçün əlindən gələni əsirgəmir.**



Cambul
MƏMMƏDLİ
cmemmedli@mail.ru

## *BÖYÜK DÖVLƏTLƏRİN KİÇİK OYUNCAQLARI*

**Dünyamız yaman çalxalanır. Dünyanın hər yerindən, əsasən də, əhalisi müsəlman olan ölkələrdən barıt və qan qoxusu heç əskik olmur. Xüsusən də son zamanlar! Dünyanın İblisə qulluq edən qüvvələri nəhayət uzun-uzadı əlləşmədən sonra İslam aləminin öndəri, bir çoxumuzun qürur yeri olan məkanı – Türkiyəni də qan çanağına döndərməyi bacara bildilər! Elə gün olmaz ki, şəhidlər verilməsin. Və indi də vətəndaş müharibəsi həddinə gətirib çatdırdılar. "Sülhsevər" və dünyada "ədalət keşikçisi" ABŞ dövləti öz sözcüsü Josh Earnest vasitəsilə — "Türkiyə və PKK-nın sülhə nail olmaq prosesinə qayıtması vacibdir"— deyir. Yəni, belə başa düşək ki, ABŞ Türkiyəni tanıdığı kimi, PKK-nı da tərəf kimi tanıyır. Yəni, ABŞ-ın özü (özünün süni şəkildə yaratdığı və sonra baş bəlasına çevrilən) Əl-Qaidə ilə sülhə necə nail oldusa, elə onun kimi. Doğrudan da "dildə sümük yoxdur", zatən siyasətin bir adı da "ayağısürüşkənlik" olandan sonra nə deyəsən dünyanın bu ən güclü ayağısürüşkənlərindən birinə?!**

Elə bunlar və bunların havadarları deyilmi dünyanın hər yerində qanı su yerinə axıtdıran, "tazıya tut, dovşana qaç" deyən, itin-pişiyin, oğru-quldurun, terrorçunun, cinsiyyəti bilinməyənlərin və bu kimi anasının əmcəyini kəsənlərin haqlarını qoruyub, iyrənc əməllərini təbliğ edən, öz torpağından, öz yurd-yuvasından didərgin düşənlərin haqlarına isə göz yumub, sadəcə "narahat" olmaqla kifayətlənib, biganə qalanlar?! Bunlar deyildimi 2008-ci ildə o vaxtkı Gürcüstan prezidenti Mixail Saakaşviliyə qucaq dolusu ümid və "qoltuğunun altına qarpız" verib, ölkəmizi RF ilə müharibəyə soxan və nəticədə yeni ərazilərimizin itirilməsinə səbəb olan?

Türklərin azca başı açılan kimi, şeytanın əsgərləri əldəqayırma " erməni soyqırımı"nı ortaya atır, itli-pişikli cumurlar türkün üstünə, halbuki özləri də gözəl bilirlər ki, soyqırımı məhz "məzlum" ermənilərin elə özləri törətmişlər. Bu barədə elə ABŞ-ın sabiq prezidenti R. Reyqanın müşaviri Bryus Feynin özü deyib: "Erməni birləşmələri Qafqazda Rusiya ordusu ilə birlikdə döyüşüb. Onlar türk və gürcü kəndlərini qarət eləyiblər, dinc əhalini qırıblar. Bu məlumatlara görə, təxminən 2 milyon adam öldürülüb. Araşdırma zamanı Türkiyə tərəfi arxivlərindən istifadə etməyə icazə verdi, amma ermənilər öz arxivlərini göstərməkdən tamamilə imtina etdilər. Mənim fikrimcə, bu arxivlər açılsa, həqiqət mütləq ortaya çıxacaq. Onda ermənilər dünya qarşısında, xüsusilə də türklər qarşısında tarixi yalana görə üzr istəməli olacaqlar".

**Üzr istəmək bir yana. ...İrəvan metrostansiyalarında vaqonların girişində ayaq altına Türkiyənin dövlət bayrağı sərilir və metropolitendə istifadə edən hər kəs onu tapdalayır. Əcaba, bu erməni dığası görəsən bu əclaflığı hansı ağasının tapşırığı ilə edir (çünki, qul xislətli birisində cəsarət heç vaxt olmayıb)?! Amma fakt budur ki, o,"atəşlə oynayır". Axı, deyiblər, "keçinin ölümü yetəndə"... İndi də bir anlığına təsəvvür edək ki, Ermənistan bayrağına hansısa müsəlman ölkəsi (elə götürək Azərbaycanı) eyni münasibəti bəsləyir (hələ burası da var ki, özləri heç bir mənəvi dəyər yarada bilmədiklərindən, bayraqlarının rənglərini də Kolumbiyanın bayrağından çırpışdıraraq, yer dəyişmə edib, yeni bir "bayraq" düzəldiblər). Bu zaman dünyanın "haqsevər", "ədalətli" aparıcı dövlətlərinin reaksiyasını təsəvvür edirsiniz? Və yaxud, fərz edək ki, Ermənistan ərazisini Azərbaycan, ya da Gürcüstan işğal altında saxlayır. İnanın, İraq, Əfqanıstan, Liviya... yalan olardı! Bütün dünya ayağa qalxıb "əzabkeş" xalqı müdafiə etmək üçün bir-biri ilə yarışardı. Bax, bunlardır bilməyimiz gərəkən acı gerçəklər...**

## ANKARA "TÜRK AXINI"NI BİRDFƏFƏLİK DONDURUR

Ankara "Türk axını" layihəsini birdəfəlik dondurub. Bu barədə Türkiyənin Hürriyət qəzeti özünün energetika və təbii ehtiyatlar nazirliyindəki mənbəyinə istinadən xəbər yayıb.

Ankaranın "Türk axını"nı birdəfəlik dondurmasının səbəbi, tərəflərin qaz kəmərinin tikintisinin detalları və Rusiya qazına güzəşt məsələləri üzrə heç cür razılığa gələ bilməməsidir.

Məlumatda o da bildirilir ki, tərəflər "Türk axını"nın tikintisi ilə bağlı danışıqları yeniləyə bilərlər, lakin danışıqların yenilənməsinin dəqiq tarixi məlum deyil.

"Türk axını" layihəsi Qara dənizdən keçməklə Rusiyadan Türkiyəyə illik 63 milyard kubmetr gücə malik qaz kəmərinin çəkilməsini nəzərdə tutur.

Güman olunur ki, qaz xətti hər biri 15,75 milyard kubmetr qaz verən dörd qoldan ibarət olacaq. Birinci qolun qazı bütünlüklə türk bazarı üçün nəzərdə tutulur. Qazın qalanı isə Türkiyə-Yunanıstan sərhədinə çatdırılmalıdır.

Qaz kəmərinin çəkilişi iyuna planlaşdırılsa da, layihə hələ də müzakirə mərhələsindədir.

## "KƏBƏ FACİƏSİ"İNİN YENİ DETALLARI ORTAYA ÇIXIB

Kəbədə kranın aşması ilə 107 nəfərin ölümünə, 200-dən çox insanın xəsarət almasına səbəb olan bədbəxt hadisənin pərdəarxası məqamlarında diqqətçəkən detallar ortaya çıxıb.

Kəbənin genişləndirilməsi üçün nəzərdə tutulan inşaatı həyata keçirən şirkət Əl-Qaidənin əfsanəvi lideri Üsəma bin Ladenin ailəsinə məxsus olub. Şirkətin inşaat işlərini 2020-ci ildə başa çatdıracağı nəzərdə tutulubmuş.

Hadisənin baş verdiyi gün və inşaatı aparan şirkətin kimə məxsusluğu barədə fikir xarici mediada bəzi ehtimalların yaranmasına səbəb olub. Belə ki, Kəbədəki hadisənin tarixi 11 sentyabr hadisələrinin ildönümü ilə eyni günə təsadüf edir. 14 il öncə sentyabrın 11-də Nyu-Yokrda əkiz qüllələrə hücum və ABŞ-ın İraqa girməsi ilə nəticələnən olayların arxasında Əl-Qaidə lideri bin Laden dayanırdı. Bin Laden Nyu-Yorkdakı terror aktını öz üzərinə götürmüşdü.

"Əkiz qüllələrə hücumdan 14 il sonra Kəbədə Bin Laden ailəsinə məxsus inşaat şirkətinin istifadə etdiyi kranın aşması təsadüfdürmü?"- xarici medianın irəli sürdüyü sual əsasən bu istiqamətdədir.



Bu, ABŞ-ın bin Ladenin məxsus olduğu xalqdan qisası, yaxud qorxu yaratmaq cəhdi ola bilər.

107 nəfərin ölümünə səbəb olan hadisənin 11 sentyabr tarixində baş verməsi İslam dünyasına mesajdır.

Ehtimallar əsasən bu istiqamətdə irəli sürülür. Lakin hadisənin tamamilə təsadüf olması da istisna deyil.

## 35 AVROPA DÖVLƏTİ RUSİYA TƏBLİĞATINA QARŞI FƏALİYYƏT GÖSTƏRƏCƏK

Polşada 35 Avropa dövləti "Şərq tərəfdaşlığı" və Baltik ölkələrində rus dilində informasiya proqramının yaradılmasına ehtiyac olduğunu bildirib. Varşavada Şərq tərəfdaşlığı ölkələrində və ondan kənarda azad və obyektiv KİV-in roluna həsr olunmuş konfrans zamanı bu barədə söhbət getmişdir.

Varşava konfransı Rusiya təbliğatının güclü olduğu ölkələrdə media layihələrini müdafiə etmək yolunda atılan ilk addımdır. Növbəti mərhələdə iyul ayında Polşa və Niderland tərəfindən Aİ-nin xarici məsələlər üzrə şurasına təqdim edilən, demokratiya üçün Avropa fondunun hesabatında yer alan "Plüralizm və rusdilli media məkanında tarazlıq" adlı tövsiyyələrin gerçəkləşdirilməsi nəzərdə tutulur.

Polşa layihənin gerçəkləşdirilməsi üçün 1 milyon avro ayırıb.

Demokratiya üçün Avropa fondu iyun ayında Rusiya təbliğatına qarşı fəaliyyət layihəsi təqdim etmişdir. Layihə məlumat mübadiləsi üçün beynəlxalq informasiya mərkəzinin, məlumat kontentinin (Content Factory) istehsalı üçün beynəlxalq mərkəzin, habelə KİV nümayəndələrinin ixtisasartırma mərkəzinin yaradılmasını nəzərdə tutur.

# PUTİN DOLLAR VƏ AVROYA QARŞI GÖZLƏNİLMƏZ ADDIM ATMAQ İSTƏYİR

Rusiya prezidenti Vladimir Putin keçmiş Sovet İttifaqı ölkələri arasında istifadə ediləcək yeni pul vahidi yaradılmasını təklif edib. Bu pulun adı türkcə "Altın" (Qızıl) olacaq.

Rusiya prezidenti Vladimir Putin Dumaya göndərdiyi bir qanun layihəsi ilə Avrasiya İqtisadi Birliyində ortaq pul vahidi yaradılmasını təklif edib.

Yeni pul vahidinin adının "Altın" seçilməsi isə müəyyən suallara səbəb olub. Belə ki, müasir Rusiyanın yerləşdiyi coğrafiyada 15-ci əsrdə monqol-tatarların Qızıl Orda Dövləti mövcud olub ki, adı çəkilən dövlət 400 il ərzində "Altın" adlı pul vahidindən istifadə edib. Lakin həmin dövlətin pul vahidi sözün həqiqi mənasında qızıl idi. Rusiyanın və onun Avrasiya İttifaqındakı müttəfiqlərinin pul vahidi kimi qızıldan istəfadə edə biləcəkləri ağlabatan görünmür.

Layihə Dumadan keçərsə avro və dollara rəqib olaraq Avrasiya məkanında yeganə pul vahidi olan bir "Altın" zonası yaratmaq planlaşdırılır.

Avrasiya İqtisadi Birliyi Rusiya, Ermənistan, Belarus, Qazaxıstan və Qırğızıstanı əhatə edir. "Altın"ın 2020-ci ilə qədər dövriyyəyə buraxılması planlaşdırılır.

## RUSİYA ORDUSU DÜNYADA İKİNCİ, AZƏRBAYCAN ORDUSU İSƏ REGİONDA BİRİNCİDİR

Global Firepower portalının tərtib etdiyi reytinqə əsasən Rusiya ordusu öz gücünə görə dünyada ikincidir.

Orduların gücü onların şəxsi heyətinin və ehtiyat qüvvələrinin sayı, malik olduqları silah arsenalı və s. amillərlə ölçülərək, bunun əsasında indeks cədvəli hazırlanıb.

Reytinqə görə, ABŞ ordusu birincidir.

Bunlardan başqa ilk onluğa Çin, Hindistan, Böyük Britaniya, Türkiyə, Yaponiya, Almaniya, Cənubi Koreya və Fransa daxil olub. Bu vaxta qədər ilk onluqda yer alan İsrail ordusu bir pillə geriləyərək 11-ci pilləyə düşüb.

Cənubi Qafqaza gəlincə, reytinqdə 63-cü yeri tutan Azərbaycan Silahlı Qüvvələri regionun ən güclüsü hesab edilib. 74-cü və 75-ci yerləri bölüşən Ermənistan və Gürcüstan ondan geri qalırlar.

## DÖVLƏT MİLLİ AZLIQLARIN GÜRCÜ DİLİNİ ÖYRƏNMƏSİNƏ YARDIM EDƏCƏK

Gürcüstan hökuməti milli azlıqların yığcam yaşadığı bölgələrdə gürcü dilinin öyrədilməsi üçün xüsusi proqram hazırlayacaq. Bolnisidəki Kazreti qəsəbəsində təhsil naziri Tamar Sanikidze və ədliyyə naziri Tea Sulukiani müvafiq memorandum imzalayıblar.

Gürcüstan təhsil və elm nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, proqram yeni təhsil ilinin başlanğıcından fəaliyyətə başlayacaq və Gürcüstan milli azlıqlarının vətəndaş inteqrasiyasına yardım edəcək.

Sənədə əsasən təhsil nazirliyi Gürcüstan ədliyyə nazirliyinin dövlət inkişaf agentliyi ilə əməkdaşlıq edəcək. Agentlik isə Z. Jvaniya adına dövlət idarəetmə məktəbilə birlikdə əhali və yerli ictimai mərkəzlərin şəxsi heyəti üçün gürcü dilinin öyrədilməsini təşkil edəcək.

Layihə yalnız gürcü dilini öyrənənlərin dili mənimsəməsinə yönləndirilməyəcək, həm də vətəndaş inteqrasiyası, milli icmaların inkişafı, ictimai mərkəzlərin qulluqçularının təhsil və ixtisasartırma məsələlərini əhatə edəcək.

“Milli azlıqların yığcam yaşadığı regionlarda idarəetmə prosedurlarının öyrədilməsi əsas mövzulardan biridir”, – məlumatda bildirilir.

## TBİLİSİ DƏNİZİ ƏTRAFINDA YENİ ŞƏHƏRCİYİN TİKİLMƏSİ PLANLAŞDIRILIR



Baş nazir İrakli Qaribaşvili sentyabrın 2-də iqtisadiyyat naziri və paytaxt meri ilə birlikdə “Djino Peredayz” akvaparkına baş çəkərək, orada biznesmen Nodar Qiorqadzenin yeni layihəsi ilə tanış olub.

Layihəyə əsasən, Tbilisi dənizinə yaxın 200-250 ha ərazidə infrastruktur layihələri, ekoloji cəhətdən təmiz tikinti materiallarından villalar, kotteclər və mənzillərin tikintisi nəzərdə tutulur.

“Djino Peredayz” bütün Zaqafqaziyada qeyri-adi layihədir. Bu, Gürcüstanda həyata keçirilən iri miqyaslı layihələrdən biridir. Layihəni bizim həmvətənimiz Nodar Qiorqadze həyata keçirir. Bu günkü görüşümüzdə biz Tbilisi dənizinin ətraf ərazilərinin inkişafına və abadlaşdırılmasına aid olan digər layihələrlə də tanış olmuşuq. Söhbət təxminən 100 milyon dollarlıq investisiyadan gedir. Söhbət Tbilisi dənizi ətrafında ekoloji cəhətdən təmiz yeni şəhərciyin tikilməsindən gedir. Biz Qudauridə, Bakurianidə də layihələrin həyata keçirilməsini düşünürük. Nodar Qiorqadzeyə təşəkkür etmək istəyirəm. Bu ona misaldır ki, vətənpərvərlər Gürcüstana qayıdıb ölkə iqtisadiyyatını gücləndirən maraqlı layihələr edirlər”, – Qaribaşvili bəyan edib. Yeni layihə çərçivəsində uşaq bağçaları, məktəblər, idman-sağlamlıq, müalicə, kurortoloji, bərpa obyektləri, eləcə də idman meydançaları, ticarət məhəlləri və digər şəhər obyektlərinin tikintisi planlaşdırılır.

90% enerji günəş, külək, su və bioqaz vasitəsilə əldə olunacaq.

Ultramüasir enerji qurğularından, günəş kollektorlarından, investorlardan, koogenerasiya və trigenerasiya qurğularından istifadə olunacaq.

## İMTAHAN MƏRKƏZİ QRANT ALA BİLMƏYƏN TƏLƏBƏLƏRƏ İŞ TƏKLİF EDİR

Gürcüstan milli imtahan və qiymətləndirmə mərkəzinin mətbuat xidmətinin məlumatında deyilir ki, mərkəz dövlət qrantı ala bilməyib, öz təhsil haqqını ödəmək məcburiyyətində qalan tələbələrə iş tapmaqda kömək edəcək.

Treninq keçdikdən və testləri uğurla verdikdən sonra tələbələr müvəqqəti işlə təmin olunacaqlar.

Məsələn, onlar buraxılış imtahanlarında müşahidəçi olacaq, qeyri-məxfi məlumatlarla işləyə biləcəklər.

Sentyabrın 9-da yayılmış məlumatda bildirilir: “Gənclər tez-tez ən ağır iş qrafiki ilə razılaşmalı olurlar ki, onların təhsil üçün gərəkli vaxtları qalmır. Mərkəz belə tələbələrə əməkdaşlıq təklif edir”. Birinci mərhələdə layihədə bir neçə ali təhsil müəssisəsinin – Tbilisi Dövlət Universiteti, Dövlət Texniki Universiteti, İlya Universiteti, Bədaye Akademiyası Və Tbilisi Dövlət Konservatoriyasının bakalavriat tələbələri iştirak edəcəklər.

Mərkəz artıq bu təhsil müəssisələrinə sentyabrın 20-dək qrant almayan tələbələrin siyahısını təqdim etmək, onlara müvafiq zəmanət vermək xahişi ilə müraciət edib.

Tələblərlə razılaşan və milli imtahan və qiymətləndirmə mərkəzi ilə əməkdaşlıq etmək istəyən tələbələr fakültə və ya ali təhsil müəssisəsi administrasiyasına müraciət edə bilərlər.

## MƏHBUSLAR ÜÇÜN ELEKTRON BİLƏRZİKLƏR ALMAQ PLANLAŞDIRILIR

Gürcüstanda ev dustaqlığı indiyədək tətbiq olunmayıb. Yeni cəza tədbiri sentyabrdan tətbiq olunmağa başlasa da, hələlik yalnız həddi-buluğa çatmamış məhbusları əhatə edəcək.

Həddi-buluğa çatmamışlar haqqında Məcəlləyə müvafiq düzəliş 12 iyul 2015-ci il tarixində edilib.

Sentyabrın 4-də cəzaçəkmə və probasiya naziri Kaxa Kaxişvili bildirib ki, ev dustaqlığında olan məhbuslara nəzarət üçün nazirlik elektron bilərziklər əldə etməyi planlaşdırır.

Nazirlər kabinetinin iclasında Kaxişvili hökumətdən ev dustaqlığını həyata keçirmək üçün dəyəri 520 min dollar olan 200 ədəd müvafiq serverli elektron bilərzik almağa kömək edilməsi üçün xahiş edib.



Afayət AFİQ



## HƏYATIMIZIN MƏKTƏBQABAĞI TƏLAŞI

**Sentyabr ayının birinci yarısı dədə-babadan el-obada yeni abu-havanın yaradıcısıdır. Sentyabrın yaxınlaşması ilə demək olar ki, bütün ailələrdə özgə bir hərəkətlilik başlayır. Uşaqların hərəkətində, böyüklərin fikirlərində özünü biruzə verən hərəkətlilik heç birimizin gözündən, ən əsası isə ailəsindən uzaq düşmür. Bu və ya digər şəkildə hamımız adı çəkilən həyəcandan pay alırıq. Söhbətin nədən gedəcəyini əlbəttə təxmin etdiniz. Məktəbqabağı bazarlıq bu dəfəki söhbətimizin mövzusu olacaq.**

Bəlkə də, oxuyanların çoxunun içində bir ürpərti baş qaldırdı. Çünki, məktəbəqədərki gəlhagəl heç də hər kəsə eyni formada gəlmir. Narahatlığa səbəb isə əlbəttə ki, maddi çatışmazlıqlardır. İlin-günün qahırlıq vaxtında ailəyə dolan uşaqları təpədən dırnağa bəzəməyə məcbursan. Bəzi valideynlər bunu həqiqətən ehtiyac olduğu üçün, bəziləri uşaqları həvəsləndirmək, ürəyini almaq üçün, bəziləri isə uşağının geyəcəyi paltarla qonşusuna rəqib olmaq istəyi ilə məktəbqabağı bazarlıq prosesində fəal iştirak edir. Kimi olanından, kimi də olmayan pulundan məhz bu dövr üçün bölüb ayırır. Borc tapır, kredit alır. Nəticədə kimsədən geri qalmır. Əslində qəribsənəcək heç bir şey yoxdur, hər şeyə borc almaq, kreditə üz tutmaq olarsa, buna niyə olmasın. Mövzudan qıraq da olsa qeyd etməliyəm ki, bu yaxınlarda tanış bir insanın faizli kreditlə ürək əməliyyatı olunduğunu öyrənəndə kifayət qədər qəribsəmiş, təəccüblənmişdim. Siz təəccüblənməyin çünki, artıq nağıllar və filmlər, xarici xəbərlərdə şahid olduğumuz səhnələr həyatımıza iri addımlarla yaxınlaşmaqdadır.

Mövzu bəhsimizə qayıdaraq, sadaladıqlarımın heç bir pis yönü olmadığını da qeyd etməliyəm. Ancaq, həddini aşmaq məsələsi olmasa. Hamınız yaxşı bilirsiniz bazarlarda, yollarda vəziyyət nə yerdədir. Bu yalnız bizdə belə deyil, bütün dünya bənzər taleni yaşayır. “İynə atsan yerə düşməz” misalı bazarlarda məhz bu dövrdə özünü doğruldur. Uşaq əlindən ayaq basmağa yer tapmadığımız bazarların satıcıları, bəlkə də indi barmaqla sayılacaq gəlirli həftələrindən birini yaşayırlar. Ticarətin qızğın dövrüdür. Buna da etirazım yoxdur, Allah alana da, satana xeyir versin. Necə deyərlər sağlıqlarına geyinib, xoşluqlara xərcləsinlər. Amma, bu hənqamənin bir az sadələşdirilə biləcəyinə şübhəm yoxdur. Bizim evdəki qaydaya görə, anam axşamdan dizimizdən topuğumuza, çiynimizdən dirsəyimizə bütün nahiyyələrimizi iplə ölçüb, səhəri həmin ölçülərlə bizə ehtiyaclarımızı alıb gətirirdi. Bəyənməmək kimi bir şeydən söhbət gedə bilməzdi, çünki bizlər onu valideyn tərəfindən seçilmiş hədiyyə olaraq qəbul edib, işə başqa yönündən baxırdıq. Azadlıq göyərçinlərinin üstümə şığımayacağını umuram, çünki mən də azadlığı sevən və insanın fərd kimi yetişməsinin tərəfdarı olanlardanam. Fəqət bir məsələ var ki, səkkiz yaşlı uşağın atasınınanasının başında qoz sındırması, bazarın ortasında olmazın oyunlardan çıxması onu fərd olmaq yolunda irəlilətməyəcək. Bu bir yana, orada – elə həmin bazarda insanlar arasında, yayın alovunda və qışın qarında əzik-əzik olan körpələrin hansı yola sövq edildiklərindən xəbərləri belə yoxdur. Bu gedişatla uşaqlar məktəbi onları bəzək-düzəklə təmin edən yer kimi qəbul edirlər. Bu gedişatla, keçən ilki geyimi ilə ilk dərs gününə gedən uşaq özünü əksik hiss edir. Utanır, basılır, demək istədiyini deyə bilmir.

**Sırf ilk gün həvəsi bir sıra problemlərə səbəb olur. Digər tərəfdən mütləq qeyd etməli olduğumuz bir məqam da var ki, eyni tendensiya bizi ali təhsil müəssisəsinə qədər izləyir. Məktəbqabağı başlığı ilə təsvir etdiyimiz vəziyyət əfsuslar olsun ki, universitet tələbələri haqqında danışmağa başlayacağımız təqdirdə də sabit qalacaq. Ona görə də burada dərininə getməkdən boyun qaçıracam. Hər halda orta və ali təhsil müəssisələrinin insana savad vermək, gələcək həyatını zəmanət altına almaq üçün var olduğunu unutmamalıyıq. Ən azından üstünlüyü məhz işin bu qisminə versək zənnimcə, doğru yol seçmiş olarıq.**

# HƏQİQƏTİ ORTAYA ÇIXARAN SÖZ GÜLƏŞDİRMƏ SƏNƏTİ

*İnsanın müəyyən bir məsələni həll etməsinin, kiminləsə mübahisəli və hətta münaqişəli ortaq malı bölməsinin, düşmən bildiyi birisilə haqq-hesab çürütməsinin istənilən sayda yöntəmi var. Inanın ki, məsələni həll edib həqiqəti ortaya çıxarmağın bizim bildiyimizdən də çox qaydası, yolu və ya üsulu var. Həqiqətin müəyyənləşdirilməsi, onun təntənəsinin bərqərar olması tərəflərin dini, mədəni, əxlaqi, etik-estetik dünyagörüşünün necəliyindən asılıdır. Tərəflərin intelektual potensialının ən müşkül məsələnin çözülməsində müstəsna rolu var. Indi mənim durub oxucuya mübahisə etməyi öyrənin deməm, söz güləşdirmək peşəsinə yiyələnin məsləhətini verməm kiminsə tərəfindən kinayə ilə qarşılana bilər. Bunun yüzdə yüz belə olacağının da fərqindəyəm. Işin bu cür yön almasından heç bir qorxumun, əndişəmin olmadığını da qulluğunuza ərz edirəm.*

Sözü bir az uzaqdan başlamamın da çox xoş olmayacağını bilirəm. Bir onu deyim ki, mənim bu cür başlamaqdan savayı çarəm də yoxdur. Əfəndimə söyləyim ki, hələ əski çağlarda, orta yüzilliklərdə cəng meydanına çıxan yağılar qılınca-qalxana əl atmamışdan qabaq sözlə bir-birinə qalib gəlmək istəyirdilər. Qəhrəmanlıq dastanlarımız yüzlərlə bu cür deyişmə, söz güləşdirmə nümunələrini bizə təqdim edir. "Kitabi – Dədə Qorqud" boylarında da bunun örnəklərinə rast gəlməmiz mümkündür. Hətta Herodotun "Tarix"ində də iskitlərlə farsların arasında müəmmalı rəmzi danışığın şahidi oluruq. Adil hökmdarlar çalışırdılar ki, məsələ öz həllini sözlə tapsın, ölkə qandan-qadadan uzaq olsun. Yəqin o hökmdarlar da "davadan bir büküm halva yaxşıdır" məsəlini özləri üçün bir devizə çevirmişdilər. Mən orasını da ovucumun içi kimi bilirəm ki, istənilən adam davanın yaxşı bir zad olmadığını əla bilir. Orasını da ürəyimdə saxlamayım ki, sözü göyərtdinmi, söz ölüb meydanı tərk edir, söz meydanında silahlar dillənib, meydan sulayır.



Amma neyləməli ki, elə adamlar, elə toplumlar, elə xalqlar və elə dövlətlər var ki, davakarlığı ilə başqalarından fərqlənirlər. Sən nə qədər cəhd edirsən ki, ay səni davadan gen getmə, dava nəyə lazımdır, gəl oturaq nə azarımız var, danışıqlar yolu ilə həll edək. Davanın sənə nə xeyri var, mənə nə xeyri? Olmur ki, olmur. Kor tutduğunu buraxmayan kimi, bu davakar adam, cəmiyyət, xalq və ya dövlət də dediyim dedikdir deyib, inadından əl çəkmir. Yəni bir növ davakarlıq onun canına-qanına işləyib. Bu mərdüməzar davakarlığı özü üçün bir peşəyə çevirib, dayanmadan yeni-yeni dava-dalaş qaydaları icad etməklə məşğul olur. Sənin də dediyinə bir quş qoyub, səni qorxaqlıqda suçlayır. Və sən də yana-yana qalırsan ki, bu davakar oğlu, davakar öz həyasızlığını qəhrəmanlıq kimi sırıyır, sənin abırlı hərəkətinə isə qorxaqlıq donu geyindirir. Sözü göyərtmədən istənilən məsələni çözmək mümkündür. Sözü göyərtdinmi, dava qaçılmaz olur. Ərlə arvadın arasında baş verən mübahisədə sözün sonuna gəlmək boşanma deməkdir. Bu, patriarxal cəmiyyətlərdə ərin arvadına bir-iki sillə çəkməsi ilə də bitə bilər. Bir çoxumuzun, elə hərdən mənim də, bəyənmədiyimiz Avropa məişət məsələlərini çözməkdə etiraf edək ki, çox uzağa gedib. Qonşular arasında söz güləşdirmənin başa çatması, məsələyə qanla möhürünü basır. Sözün bitdiyi yerdə sevgililər arasında qan tökülməsi labüd olur. Sözün funksiyası bitdimi bir nadanın bıçağı işə düşüb, kiminsə ürəyinə sancılır və həyatına son qoyulmuş bədbəxtin neçə doğması gözüyaşlı qalır. Guya namusunu təmizlədiyini, söyüş götürməyi ləyaqətinə sığışdırmadığını düşünən qatil bədbəxt isə barmaqlıqlar arxasına düşərək, öz doğmalarını da gözüyaşlı qoymalı olur.

Dövlətlərin də sözü qurtaranda silahlar dillənir və minlərlə, milyonlarla insanın qanı axıdılır. Yazılı tarix 15 mindən çox qanlı münaqişənin, amansız müharibənin olmasını yaddaşında dövrümüzə qədər gətirib çıxarıb. Lakin bəşər övladı bundan ibrət götürməyib, bu gün də müxtəlif adlar altında qanı su yerinə axıtmaqdadır. Yaxın Şərqdə, Afrikada, qulağımızın dibində – Ukraynada gedən müharibələr dediklərimizi təsdiqləmirmi? Biz nə vaxta qədər qan tökməklə məşğul olmalıyıq ki? Allah bizi canlıların əşrəfi olaraq xəlq edib ki, gözəlliklərə imza ataq. Biz bir-birimizin qanını axıtmaqla gör nələrə imzamızı qoyuruq? El ağızından bir müdrik ifadə də verim : "Dalaşanda elə dalaş ki, barışmağa üzün olsun".

Elə bu fikirlə də yazıya son qoymaq istəyirdim, amma mənə agah oldu ki, yazımın başı ilə ayağı uzlaşmır. Və bu cümləni artırmalı oldum: Mübahisə etməyi öyrənin...

A. M. DƏLİVƏLİGİL

## GÜRCÜSTANDA XARİCİ İNVESTİSİYA QOYULUŞUNDA AZƏRBAYCAN BİRİNCİDİR

Gürcüstan milli statistika xidməti "Sakstat"ın məlumatına görə, 2015-ci ilin aprel-iyun aylarında Gürcüstana birbaşa xarici investisiyaların həcmi 355 milyon dollar olub ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 81%, 2015-ci ilin birinci rübü ilə müqayisədə isə 103% çoxdur.

2015-ci ilin birinci yarısı üçün ilkin göstəricilər cəmi 530 milyon dollar olub ki, bu, keçən ilin eyni dövründəkindən 5% artıqdır.

2015-ci ilin ikinci rübündə Gürcüstan iqtisadiyyatına qoyulan sərmayənin həcminə görə 160 milyon dollarla Azərbaycan birinci yerdədir ki, bu da birbaşa xarici sərmayənin ümumi həcminin 45%-i deməkdir. 68 milyon dollar və ya 19%-lə Niderland ikinci, 41 milyon dollar və ya 12%-lə Türkiyə üçüncü yerdədir.

2015-ci ilin birinci yarsında da Gürcüstan iqtisadiyyatına qoyulan sərmayənin həcminə görə, Azərbaycan (219 milyon dollar) birinci, Niderland (90 milyon dollar) ikinci və Türkiyə (68 milyon dollar) üçüncü yeri tutub.

2014-cü ilin dəqiqləşdirilmiş məlumatlarına görə Gürcüstana qoyulan xarici sərmayə 1,758 milyard dollar olub ki, bu da 2013-cü ilin anoloji dövründəki 942 milyonluq investisiyadan 87% çoxdur.

## GÜRCÜSTANDA PENSİYALAR 6,6% ARTIRILDI

Gürcüstanda yaşlı pensiyaçılar bundan sonra 6,6% çox, daha doğrusu 160 lari alacaqlar. Bu barədə səhiyyə nazirinin müavini Zaza Sopromadze məlumat verib.

Gürcüstanda pensiyalar sonuncu dəfə 2013-cü ilin sentyabrında artırılaraq 150 lari olmuşdur. Bir il keçdikdən sonra ölkənin milli valyutası olan lari ucuzlaşmağa başladı. 2014-cü ilin 26 oktyabrından bu ilin sentyabrın 1-dək larinin kursu ABŞ dollarına münasibətdə 34% qiymətdən düşüb.

"Sentyabrın 15-dən bütün pensiyaçılar artırılmış pensiya alacaqlar. Bunun üçün ildə əlavə 30 milyon lari (12,7 milyon dollara yaxın) lazımdır. Bu, artıq büdcədə nəzərə alınıb", – əmək, səhiyyə və sosial müdafiə nazirinin müavini bəyan edib.

Son ilyarım ərzində ölkəmizdə pensiyaçıların sayı 17 min nəfər artaraq, 703 min nəfərdən artıq olub.

"Pensiyaçıların ömrü pensiya yaşlı şəxslər üçün müəyyən olunmuş tibbi sığorta nəticəsində artıb", – Sopromadze qeyd edib.

Xatırladaq ki, Gürcüstanda qadınlar 60, kişilər isə 65 yaşdan pensiya alırlar.

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN TURİST MARŞURUTLARINI BİRLƏŞDİRƏ BİLƏR

Azərbaycan mədəniyyət və turizm naziri Əbülfəs Qarayev sentyabrın 9-da Azərbaycanda səfərdə olan Gürcüstan milli turizm agentliyinin rəhbəri Qeorqi Çoqovadze ilə görüşüb.

Hər iki ölkənin turizm idarəsinin başçıları birgə fəaliyyət üçün qarşılıqlı əməkdaşlığın genişləndirilməsi məsələlərini müzakirə etmiş, peşəkar fəaliyyət sahəsində təcrübə mübadiləsi aparmışlar.

Yayılan xəbərdə bildirilir: "Əbülfəs Qarayev turistərin cəlb olunması tədbirləri sahəsində hər iki ölkə üçün tək regional səviyyədə deyil, həm də dünya səviyyəsində mühüm addım ola biləcək birgə turist marşurutları yaradılmasını təklif edib. Hər iki ölkənin oxşar spesifikası turistləri cəlb edə bilər".

Azərbaycanlı nazir gürcü həmkarına Azərbaycan konqres-bürosunun, eləcə də turizm agentliyinin fəaliyyəti ilə tanış olmağı və turist kompaniyaları ilə görüşməyi təklif etmişdir. Çoqovadze isə Gürcüstan iqtisadiyyatının prioritet istiqaməti kimi turizm sahəsində reallaşdırılan layihələr haqqında danışmışdır.

## "SADIQLI" NƏZARƏT BURAXILIŞ MƏNTƏQƏSİNDƏ TƏMİR İŞLƏRİ APARILACAQ

Azərbaycan-Gürcüstan sərhədindəki "Sadıqlı" nəzarət buraxılış məntəqəsində təmir işlərinin aparılması planlaşdırılır. Bu barədə sentyabrın 8-də Azərbaycan dövlət gömrük komitəsinin başçısı Aydın Əliyev Bakıda keçirilən Ümumdünya Gömrük Təşkilatının (ÜGT) PICARD X Beynəlxalq illik konfransı ("Gömrük sahəsində akademik tədqiqatlar və inkişaf üzrə tərəfdaşlıq proqramı") çərçivəsində jurnalistlərə məlumat verib.

"Gürcüstan tərəfi ilə artıq razılığa gəlinib və biz təmir işlərinə başlamağa hazırıq. Lakin biz Gürcüstan tərəfini gözləyirik ki, işlərə sərhədin hər iki tərəfində eyni vaxtda başlayaq", – Aydın Əliyev deyib.

Onun sözlərinə görə, "Sadıqlı" nəzarət buraxılış məntəqəsi Azərbaycan-Gürcüstan sərhədinin buraxılış qabiliyyətini artırmaq məqsədilə açılıb, daim işləməsi nəzərdə tutulur.

Xatırladaq ki, Azərbaycan və Gürcüstan arasında altı gömrük məntəqəsi fəaliyyət göstərir. "Sadıqlı" nəzarət buraxılış məntəqəsindən minik avtomobillərinin gediş-gəlişi cari ilin 10 avqustundan bərpa olunub.

## YANVAR-İYUN AYLARINDA YOL-NƏQLİYYAT HADİSƏLƏRİNDƏ HƏLAK OLANLARIN SAYI 37% ARTIB

Gürcüstan daxili işlər nazirliyinin statistikasına əsasən 2014-cü illə müqayisədə 2015-ci ilin yanvar-iyun aylarında ölkəmizdə yol-nəqliyyat hadisələrində həlak olanların sayı 37% artıb. 2014-cü ildə qəzalarda 180 nəfər həlak olmuş, 3635 nəfər xəsarət almışdır. 2015-ci ilin altı ayı ərzində 284 nəfər həlak olub, 4130 vətəndaş isə yaralanıb. Son yeddi il ərzində qəzalarda şikəst olanların belə yüksək səviyyəsi qeydə alınmayıb.

2008-2015-ci illərdə Gürcüstanda yol-nəqliyyat qəzalarında 2159 adam həlak olub, 33026 nəfər isə zərər görüb. Yüksək sürət, ümumi xətti kəsmək, avtomobilləri sərxoş idarə etmək yol-nəqliyyat hadisələrinin əsas səbəbləridir.

Yol və nəqliyyat assosiyasiyasının qiymətləndirməsinə görə, yol-nəqliyyat hadisələri həm də qayda pozuntularına patrul polisinin qeyri-ciddi və keyfiyyətsiz reaksiyası, şəhərlərarası nəqliyyatın texniki nasazlığı, yol təhlükəsizliyi strategiyasının yoxluğu və düzgün olmayan dövlət siyasəti nəticəsində baş verir.

## BİDZİNA İVANİŞVİLİNİN OĞLUNUN SİYASƏTƏ GƏLMƏSİ XƏBƏRİ ƏSASSIZDIR



"Mokalake" qeyri-hökumət təşkilatı Gürcüstanın keçmiş baş naziri Bidzina İvanişvilinin oğlu Uta İvanişvilinin siyasətə gəlməsi haqqında informasiya vasitələrində yayılan məlumata münasibət bildirib. Xüsusi bəyanatda yayılan məlumatın ictimaiyyəti çaşdırmaq məqsədilə verildiyi qeyd edilir.

Bəyanatda qeyd edilib ki: "Son günlərdə bir neçə informasiya vasitəsində Uta İvanişvilinin siyasətə gəlməsi haqqında məlumatın yayılması ictimaiyyəti çaşdırmaq üçündür. "Mokalake" cəmiyyəti bildirir ki, oxşar məlumatın yayılmasının heç bir əsası yoxdur. Uta İvanişvili hazırki mərhələdə, eləcə də gələcəkdə siyasətə qoşulmağı düşünmür".

## AZƏRBAYCANLININ FACEBOOK-DA YAYILAN FOTOSUNA BARAK OBAMA ŞƏRH YAZDI

Brandon adlı amerikalı jurnalist Təbrizdə çəkdiyi fotonu Facebook-da paylaşıb. Fotoda təbrizli ata və oğul əks olunub. Brandon təbrizli atanın ona danışdığı hadisəni də şəklin altına əlavə edib:

"Bu gün onun 10 yaşı tamam olur. O, çox ürəyi yumşaq, mehriban uşaqdır. Onun beş yaşı olarkən mənimlə bazara getmişdi, biz qaysı aldıq. O, məndən qaysı olan torbacığı götürməyə icazə istədi. Mən icazə verdim. Özüm qabaqda gedirdim. O da arxamca gəlirdi. Mən ona dedim ki, bəsdir, ver mən götürüm. O dedi: "Verə bilmərəm. Çünki hamsını paylamışam". Mən bilirdim ki, insanları sevən bir övlad tərbiyə edirəm."

Barak Obama təbrizli ailənin bu şəklini bəyənib, belə şərh yazıb: "Necə də ruhlandırıcı hadisədir. Siz ata kimi övladınıza etdiklərinizin yaxşı nəticəsini yavaş-yavaş onun əxlaqında görüb sevinirsiz. Bu hadisə mənə xüsusi hisslər yaşatdı. Ümidvaram bu uşaq digər insanlara kömək meylini heç zaman itirməyəcək. Mən bütün dünyanı belə cavanların öz potensialları ilə yaşaması üçün əlverişli məkana çevirməyə çalışıram. (Əgər onu bir gün görsəm ümidvaram mənə qaysı saxlamış olar.)

Obamanın bu şərhinə yazılan fikirlərdən biri diqqəti cəlb edir: "Cənab president, siz dünyanı müharibələrlə dağıtmayın, yetər."

Ağ evə məxsus profilə yazılan şərhin sonunda "BO" yazılıb. Bu isə şərhin Barak Obama tərəfindən yazılmasını bildirir.

## SENTYABRIN 10-DAN TBILISI KANATI FƏALIYYƏTINI DAYANDIRACAQ

Riğe ilə Narınqala arasında olan kanat yolu planlı yoxlama işləri ilə əlaqədar sentyabrın 10-dan 20-ə kimi fəaliyyətini dayandıracaq. Tbilisi meriyasından verilən məlumata əsasən, kanat sistemli olaraq texniki baxışdan keçirildikdən sonra yenə vətəndaşların və turistlərin xidmətində olacaq.



Tbilisi meriyasından bildirilib ki, "Riğe və Narınqalanı birləşdirən kanat yolu 2012-ci ildən fəaliyyətə başlayıb. Hər gün 2500 sərnişinə xidmət göstərir. Kanat beynəlxalq standartlara uyğun olaraq inşa edilib və sistemli yoxlama işləri təhlükəsizlik normalarına riayət etməyin şərtlərindəndir".

## GƏNCƏDƏ "ƏLİ VƏ NİNO" ABİDƏSİ UCALDILIR



Azərbaycanda da "Əli və Nino" üçün abidə ucaldılacaq. Ninonun vətəni Gürcüstanda onlar üçün artıq belə bir abidə ucaldılıb.

Gəncəçayın sağ sahilində salınan "Əli və Nino" memarlıq abidəsində hazırda beton-konstruksiya işləri aparılır. "Əli və Nino" heykəllərinin hündürlüyü 3,5 metr olacaq. Kompleksdə işlərin iki ay ərzində başa çatdırılması nəzərdə tutulur.

Azərbaycanda ilk olacaq bu heykəl Gəncənin Bulvar Kompleksi ərazisində ucaldılır. Memarlar abidənin dünya memarlığında bir ilk olacağını bildirirlər. Abidənin memarı Cahid Həsənovdur. Heykəl iki alovun yanması anlamını verəcək. Sonrakı mərhələdə isə "Əli və Nino" tərənnüm olunur. Heykəlin ətrafında süni tüstü effektləri veriləcək ki, sanki onların eşqləri səmada uçur. Dünya memarlığında ilk dəfə bu abidədə vizual bir görüntü yaradılacaq. Bundan başqa, abidənin ətrafında 3 fəvvara quraşdırılır. Fəvvarələr də vizual olaraq göz yaşlarını xatırladacaq. Layihəyə görə, "Əli və Nino" heykəli Şərq üslubunda, lakin modern formada olacaq.

Azərbaycanlı gəncin və gürcü qızının sevgisini əks etdirən abidə Azərbaycandan əvvəl Çin , Fransa və Gürcüstanda ucaldılıb. Bu ilin fevralında isə "Əli və Nino" romanı əsasında eyniadlı filmin Azərbaycanda çəkilişləri başlayıb.

Xatırladaq ki, qəzetimizin ötən sayında "Əli və Nino"nun Batumidəki abidəsinin yerinin dəyişdirilməsi ilə bağlı xəbəri oxucularımızın diqqətinə çatdırmışdıq.

Anar
RAFİQOĞLU



## ÖLÜMSÜZLÜK MÜMKÜNDÜRMÜ?

**Ölənlər, yaşayanlar və gələcəkdə yaşayacaq olanlar. İnsan həyatını eynən zamanın üç formasına bənzətmək olar. Keçmiş, indiki və gələcək zaman. Bizdən öncə, yəni keçmişdə, milyardlarla insan yaşayıb. İndi də yaşayır və yəqin ki, gələcəkdə də yaşayacaq. Gəlmiş-keçmiş bütün insanları düşünəcək olarsaq, hər birinin arzuları, xəyalları, ailələri vardı. Fərqli-fərqli ölkələrdə, başqa-başqa coğrafiyalarda yaşayırdılar. Kimisi kral, kimisi dilənçi idi. Amma hər birini birləşdirən yeganə ortaq nöqtə vardı. Ölüm...**

Milyonlarcası xəstəlikdən, milyonlarcası müharibədə, milyonlarcası isə qəzada öldü. Amma nəticədə hər biri öldü. Ölüm bir sondurmu? Yoxsa sonsuz həyatın bir başlanğıcıdırmı? Dini inanca sahib olan insanlar üçün bu bir başlanğıcdır. Lakin nəzərə alsaq ki, hər kəs dini inanca sahib deyil, o zaman ortaya ölüm qorxusu, ölümdən qaçmaq istəyi və bəlkə də ölümsüzlük arzusu çıxır. Ölümsüzlük arzusu insanlarda qədim dövrlərdən bəri mövcud olub. Bir çox hökmdar ölümsüz olmanın yollarını axtarıb. Bəziləri, adına ölümsüzlük şərabı qoyub, şərab içib. Bəziləri şərbət, bir başqaları isə qan içib. Amma yenə də bir çarəsini tapa bilməyiblər, vaxtı-vədəsi çatanda hər biri ölümü dadmışdır. Ölümdən qaçmaq, ölümsüzlük qazanaraq əbədi var olmaq istəyi insanı uzaq səfərlərin yolçusu etmiş, onu gerçək ölümlə üz-üzə qoymuşdur. Dirilik suyu dalınca düşüb, neçə-neçə maneədən keçərək əbədi yaşayacağına, ölümə qalib gələcəyinə inananlar tarix boyu olub. Dünən də var idi, bu gün də bizim aramızda yaşamaqdadırlar, sabah da varlıqlarını sürdürəcəklər. Dünyanı bir xalça kimi ayaqları altına sərən Makedoniyalı İskəndərin ölümsüzlük qazanmaq üçün sürdürdüyü mücadilə haqqında danışılanlar nə qədər reallıqdan uzaq görünsə də, əslində bu, təkcə İskəndərin istəyi deyildi, bütün insanların gerçək arzularının törəməsi idi. Nə yazıq ki, insan ölümlü xəlq olunub...

İndi isə keçmişi bir kənara qoyub, sizə indiki zamanda və gələcək adına bu mövzularda nələr planlanır, ondan yazım...

Amerikalı alim Ray Kurzveil bildirir ki, önümüzdəki 30 il ərzində insan beyni, xatirələri və qabiliyyətləri ilə birlikdə kompüterə köçürüləcək. 40 il sonra isə, kompüterə köçürülən beyin məlumatları insana bənzər robotlara əlavə ediləcək. Bunun nəticəsində insanlar bədənə ehtiyac olmadan robot tərkibində insan kimi yaşaya biləcək. Üstəlik xəstələnmədən və daha geniş funksiyalara sahib olaraq. Ancaq bir dəmir parçası olaraq sonsuzadək yaşamaq nə dərəcədə maraqlı və mənalı olar, orasını siz dəyərli oxucularımız yorumlayın.

Rusiyalı professor Vladimir Skulaçev də ölümsüzlük arayışları içərisindədir.

Moskva Dövlət Universitetinin professoru olan Vladimir Skulaçev, 40 illik tədqiqatların nəticəsində ölümsüzlük dərmanına çox yaxınlaşdıqlarını açıqlayıb. Dərmanın, oksigenin bədəndəki hüceyrələrə zərərli təsirini dayandıraraq, hüceyrələrin ölməsinə mane olduğunu söyləyən Skulaçev, işlərinin yekunlaşması üçün son bir neçə ilə daha ehtiyac olduğunu iddia etmişdir. Ancaq bu layihə ölümsüzlükdən daha çox, insan ömrünü uzatmaq üçün nəzərdə tutulub. Əgər gerçəkdən də hüceyrələrin ölməsinə mane olacaq bir dərman tapılarsa, o zaman insan ömrü ortalama 100 ilin üzərində olacaq. Amma bu sadəcə insan ömrünün uzanmasına biloji olaraq təsir edə bilər. Yoxsa qəza, cinayət kimi hadisələrdə ölüm yenə var olacaq.

Ölümsüzlüklə bağlı bir çox ölkədə, bir-birindən maraqlı çalışmalar aparılır. Bu çox geniş mövzudur. Ona görə də, qismət olarsa bir hissəsini də gələcək yazılarımda sizlərlə paylaşacam.

**Son olaraq, qeyd edim ki, istənilən halda ölümsüzlük insanın öz əlindədir, məncə. Biz, bu gün yüz illər keçməsinə baxmayaraq, bəzi insanları unutmuruqsa, görmədiyimizə rəğmən seviriksə, demək ki, bu insanlar ölümsüz olmağı bacarıblar.**

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 sentyabr2015-ci il
№007 (07)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “გზა” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## TİFLİS AZƏRBAYCAN TEATRI LİTVADA KEÇİRİLƏCƏK BEYNƏLXALQ TEATR FESTİVALINA DƏVƏT ALIB




“Kvira” xəbər portalının məlumatına görə, H. Əliyev adına Tbilisi Azərbaycan Peşəkar Dövlət Dram Teatrı Litvanın Yonava şəhərində keçiriləcək beynəlxalq teatr festivalına dəvət alıb. Festival sentyabrın 23-dən 27-ə kimi davam edəcək. Sentyabrın 25-də teatr festivalda A. Çexovun pyesi əsasında səhnələşdirilmiş “Ayı” tamaşası ilə çıxış edəcək.

Tamaşanın quruluşçu rejissoru, tərtibatçı rəssamı və musiqi tərtibatçısı Turqay Vəlizadədir. Rolları teatrın aktyorları Aslan Məmmədov, Leyla Qasımova və Turqay Vəlizadə ifa edirlər.

Teatrın festivalda iştirakı üçün Gürcüstan Mədəniyyət və Abidələrin Mühafizəsi Nazirliyi və “Tiflis Palace” mehmanxanası maddi dəstək göstərir. Teatr öz Facebook səhifəsindən maddi dəstək göstərən təşkilatlara minnətdarlığını bildirib.

Biz də “Yeni yol”qəzeti olaraq teatrın yaradıcı kollektivinə sənət uğurları arzulayırıq.

## “MİSS PLANETA-2015” MUSABİQƏSİNİN QALİBİ GÜRCÜ QIZI OLDU

18 yaşlı Tinatin Babuliani dünyanın ən gözəl qızı oldu. Beynəlxalq “Miss Planeta-2015” müsabiqəsinin finalı Tbilisidə keçirilib. Ağ qızıldan hazırlanmış tac uğurunda İsveç, Ukrayna, Rusiya, Bolqarıstan və Portuqaliyadan 35 qız mübarizə aparıb. Münsiflərin fikrinə görə, dünyanın ən gözəl qızı Gürcüstan sakini Tinatin Babulianidir.

Tinatin Babuliani üçün bu ilk tac deyil. O, qələbənin nə olduğunu uşaqlıqdan bilir. Bundan əvvəl o, Gürcüstanın miss-tineyceri və Avropanın vitse-missi titullarını qazanıb. Bu dəfə Babuliani öz qələbəsinə inanırdı.

Son mərhələdə Tinatinlə birlikdə İsveçin nümayəndəsi Frida Fornander mübarizə aparırdı. O, 2014-cü il Miss İsveç müsabiqəsinin qalibidir.

Qeyd etmək lazımdır ki, bu miqyasda gözəllik yarışması Gürcüstanda indiyədək keçirilməyib. Təşkilatçılar bildiriblər ki, gələn il burada “Kiçik miss planeta” müsabiqəsinin keçirilməsi planlaşdırılır.



## XINA BİR ÇOX XƏSTƏLİKLƏRİ MÜALİCƏ EDİR

Xına təkcə kosmetik vasitə deyil, xına qədim zamanlardan təbii müalicəvi vasitə kimi tanınıb, istifadə olunur.

Qədimdə xınanın köməyi ilə yaralar, xoralar, dəri xəstəlikləri müalicə olunurdu. Hesab olunurdu ki, xına kişilərdə potensiyanı artırır.

Müasir təbabətdə də xına müalicəvi vasitə kimi geniş istifadə ounur. Xına Hindistanda, İranda, Misirdə və digər ölkələrdə bitən lavsoniya kolunun qurudulmuş və xırdalanmış yarpaqlarından hazırlanır.

Xına müxtəlif saç və baş dərisi problemlərində istifadə olunur. Saçları kəpəkdən azad edir, onları daha canlı, möhkəm, parlaq və sağlam edir. Saçn tökülməsini azaldır, saçları bərpa edir.

Saçlarınızın rəngini dəyişmək istəmirsinizsə, rəngsiz xınadan istifadə edin. Rəngsiz xına baş dərisinin iltihabları, qıcıqlanması, saçların tökülməsi zamanı istifadə olunur. Quru saçlar və quru baş dərisi zamanı xınanı su və gənəgərçək yağı ilə yarıbayarı, yağlı saçlar və yağlı baş dərisi zamanı isə xama kimi alınanadək su ilə yaxşı qarışdırın. Xınanı saçlara çəkin, əvvəl plyonka, sonra isə dəsmalla bükün və 2-3 saat saxlayıb, sonra yuyun.

Rəngsiz xına allergik reaksiyaya səbəb olmur, istənilən saçlar və baş dərisi üçün istifadə oluna bilər.Rəngsiz xına müxtəlif kiçik yaralar, sıyrıntılar, dabanlarda çatlar, diatez, ekzema, dermatit və s. dəri xəstəlikləri zamanı istifadə oluna bilər. Bunun üçün xına xama kimi alınanadək isti su ilə qarışdırılıb pambıq parçaya çəkilir və dərinin zədələnmiş hissəinə qoyulur.

(Ardı gələn sayımızda)

# YENİ NƏŞRLƏR

## NURAFİZ: İŞIQDAN KEÇƏN ADAM (TOPLU)




Bu yaxınlarda Bakıda “Qanun” nəşriyyatında həmyerlimiz, müasir poeziyamızda öz dəsti-xətti ilə seçilən şair Nurafizin yaradıcılığına və ömür yoluna bələdçilik edən 304 səhifəlik, nəfis tərtibatlı “Nurafiz: İşıqdan keçən adam (toplu)” kitabı işıq üzü görüb. Kitabın tərtibatçısı və nəşrə hazırlayanı yazıçı Nəriman Əbdülrəhmanlı, redaktoru isə şair Rafiq Hümmətdir.

İstedadlı şair Nurafiz haqqındakı bu kitab onu həm əvəzsiz bir insan, həm də dəyərli bir şair kimi təqdim etmək baxımından maraq doğurur. Beş bölmə-kitab şəklində tərtib olunan bu topluda şairin yaradıcılığına müxtəlif yöndən ayna tutulur. Hər bölmədə şair Nurafizin öz yaradıcılığından verilən poetik parçalar və publisistik nümunələr onun yaradıcılığı barədə, könül dünyasının çırpıntıları haqda oxucularda müəyyən təəssürat yaradır. Onun poetik dünyasını digərlərindən fərqləndirmək o qədər də çətin deyil. Nədən ki, Nurafizin şeirləri təbiəti etibarı ilə ana laylası qədər qəlb oxşayan, ürəyə yatandır.

Eləcə də şairi tanıyan və tanımayan insanların onun haqqında səsləndirdikləri fikirlər, ona itihaf etdikləri şeirlər, əsərlərini təhlil süzgəcindən keçirən ədəbi-tənqidi yazılar Nurafizin insan və şair obrazını bütöv şəkildə canlandıra bilir.

## OTAR ÇİLADZENİN ROMANI TÜRK DİLİNDƏ NƏŞR OLUNUB



Milli gürcü kitab mərkəzi xəbər verir ki, gürcü yazıçısı Otar Çiladzenin ilk romanlarından biri türk dilinə tərcümə olunub.

O. Çiladzenin “Yolla adam gedirdi” romanını türk dilinə Farnabəy Çilaşvili tərcümə edib. Kitab "Aylak Adam Kültür Sanat Yayıncılık" nəşriyyatında çap olunub.

Çiladzenin romanı ilk dəfə 1973-cü ildə işıq üzü görüb. Yazıçı romanda yunanların Gürcüstan torpaqlarına qədəm qoyduğu dövrün hadisələrini canlandırıb. Hadisələr Kolxida çarlığında cərəyan edir. Romanın əsas qəhrəmanları kolx çarı, onun qızı, əcnəbi səyyah Friks və qızıl yunun arxasınca üzüb, naməlum sahillərə gəlib çıxmış yunan Yasondur.

Otar Çiladze (1933-2009) Siqnaxi şəhərində anadan olub. 1956-cı ildə Tbilisi Dövlət Universitetinin filologiya və jurnalistika fakültəsini bitirib. Çiladze onlarla nəsr əsərinin müəllifidir. Onun ssenarisi əsasında “Əsgər qoşundan necə geridə qaldı” (1965) bədii filmi çəkilib. Yazıçı A. S. Puşkinin bir neçə poemasını və dünya klassiklərinin bir çox əsərlərini gürcü dilinə tərcümə edib. O, Şota Rustaveli və İlya Çavçavadze adına ədəbiyyat mükafatlarına, Gürcüstanın Şərəf ordeninə layiq görülüb.

Çiladzenin bioqrafiyası Böyük Britaniyanın Who is Who toplusuna daxil edilib. 1999-cu ildə “Avelum” romanı və digər əsərlərinə görə ədəbiyyat üzrə Nobel mükafatı alması üçün namizədliyi irəli sürülüb.

Təsisçi:
*“Gürcüstan gənclərinə Yardım və Maarifləndimrə Təşkilatı”*

*Redaktor:*
**Afiq Muxtaroğlu**
*Yayım Direktoru:*
**Hacı Bəkiroğlu**

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.